2017-ci ilin yanvar-fevral aylarında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 164647,7 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz çoxdur. Sənaye istehsalının 96,2 faizi malların, 3,8 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin dövlət sektorunda 8787,7 min manatlıq, qeyri-dövlət sektorunda 155860 min manatlıq məhsul istehsal edilmişdir.

2017-ci ilin yanvar ayında muxtar respublikanın sənaye müəssisələrində 15908 nəfər işçi çalışmışdır ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur. Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2016-cı ilin müvafiq dövrünə nisbətən 1,5 faiz artaraq 360,1 manat olmuşdur.